# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparatının strukturunun və ştat cədvəlinin təsdiq edilməsi haqqında" 2012-ci il 28 dekabr tarixli 112 nömrəli və "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin ştat cədvəli"nin təsdiq edilməsi haqqında" 2019-cu il 9 sentyabr tarixli 117 nömrəli qərarlarında dəyişiklik edilməsi, "Jurnalistlərin Naxçıvan Muxtar Respublikası ərazisində cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Əlahiddə Ümumqoşun Ordusu ilə razılaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 11 sentyabr tarixli 61 nömrəli və "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən apostil şəhadətnaməsinin verilməsi ilə bağlı məsələlərin tənzimlənməsi haqqında" 2020-ci il 6 fevral tarixli 29 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparatının strukturunun və ştat cədvəlinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 28 dekabr tarixli 112 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin ştat cədvəli"nin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 sentyabr tarixli 117 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Jurnalistlərin Naxçıvan Muxtar Respublikası ərazisində cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Əlahiddə Ümumqoşun Ordusu ilə razılaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 11 sentyabr tarixli 61 nömrəli və "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən apostil şəhadətnaməsinin verilməsi ilə bağlı məsələlərin tənzimlənməsi haqqında" 2020-ci il 6 fevral tarixli 29 nömrəli qərarları ləğv edilsin.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, " 13 " mart 2024-cü il

№ 25